# Azərbaycan sülhü, Ermənistan isə terroru müdafiə edir

## Beynəlxalq aləm növbəti dəfə erməni həyasızlığına şahidlik etməkdədir

30 il boyunca münaqişəni hərbi-siyasi yolla həll etməmək üçün səbrini göstərən Azərbaycan indi də böyüklük nümayiş etdirir. Bu həm diplomatik, həm də hərbi meydanda qarşımızda diz çökməyə məcbur olan Ermənistanın özünə də yaxşı məlumdur. Ermənilərin bundan sonrakı taleyi isə onların atacağı son addımdan asılı qalıb. Bununla bağlı Prezident İlham Əliyev I Şuşa Qlobal Media Forumunda mövqeyini bir daha ifadə edib: "Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır". Dövlət başçısının dediyi kimi, "onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir".

4

# Azərbaycan sülhü, Ermənistan isə terroru müdafiə edir

## Beynəlxalq aləm növbəti dəfə erməni həyasızlığına şahidlik etməkdədir

Azərbaycan regionda qalib və diktə edən tərəf olmasına baxmayaraq, uzun illər xalqımıza qarşı davamlı soyqırımları, terror və təxribatlar törədən, hətta bu əməllərinə post-müharibə dövründə də son verməyən ermənilərə qarşı münasibətdə belə humanist davranır, bədnam qonşumuza sülh əlini uzadır. Məğlub tərəfə tərəqqi etməyin yolunu və inkişaf perspektivlərini göstərir.



Bu, bir daha sübut edir ki, Azərbaycan dövləti, onun Müzəffər Ali Baş Komandanı İlham Əliyev humanizm prinsiplərinin fərqindədir, hətta bunu özündən dəfələrlə böyük güclərdən fərqli olaraq əməllərində də sübuta yetirir. Azərbaycan bölgə xalqlarının dinc birgəyaşayışını və qonşu dövlətlərin faydalı əməkdaşlığını təmin etməkdən ötrü böyüklük nümayiş etdirir.

### Düşmənin istənilən təxribatının qarşısı qətiyyətlə alınacaq

Lakin mənfur Ermənistanın terrorçu xisləti o qədər güclü, erməni geni o qədər zaydır ki, onlar bu cür humanistliyin qarşısında belə təxribatlardan əl çəkə bilmir, cinayət əməllərinə davam edirlər. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olsa da, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Hayastan silahlı qüvvələrinin tör-töküntüləri hələ də mövcuddur.

10 noyabr üçtərəfli Bəyanatın şərtlərinə bədnam qonşumuz tərəfindən əməl edilmir, müharibədə acı məğlubiyyətə uğrayan təcavüzkar Ermənistan yenidən sərhəd təxribatlarına əl atır. Onlar xüsusilə Laçın sərhəd-keçid məntəqəsinin yaradılması ilə barışa bilmir, humanitar yüklərin Ağdam yolu vasitəsilə daşınmasına süni maneələr yaradır, ölkəmizi "humanitar fəlakət" törətməkdə günahlandırırlar.

Ermənistanın siyasi rəhbərliyi hələ bu azmış kimi, sadə erməniləri də öz şoularında alətə çevirir, onları mitinqə yığmağa çalışır. Bununla da sülh müqaviləsinin imzalanmasını gecikdirmək, eləcə də Qarabağda yaşayan erməni əhalinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasını əngəlləmək istəyir. Ermənistan həmçinin işğal altında saxladığı torpaqlarımızda uzun on illər ərzində həyata keçirdiyi ekoloji terrorunu indi də Naxçıvanla sərhəddə, Arazdəyəndə davam etdirməyə hazırlaşır. Açıq-aydın görünür ki, Ermənistan hər vəchlə terrora əsaslanan dövlət siyasətini davam etdirir, Azərbaycanın regionda yürütdüyü müstəqil siyasət, işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirdiyi genişmiqyaslı yenidənqurma işləri Ermənistan və onun havadarları tərəfindən qısqanclıqla qarşılanır. Ölkəmizin Vətən müharibəsindəki şanlı Zəfərini və regionda söz sahibinə çevrilməsini həzm edə bilmirlər.

### Ermənistan bilməlidir ki, təxribatlarına son qoymasa, bu onlara baha başa gələcək

Ermənistan tərəfi indiyədək törətdiyi təxribatların heç birində kiçik də olsa öz xeyrinə nəsə əldə edə bilməyib. Törədilən bütün təxribatların qarşısı Azərbaycan tərəfindən qətiyyətlə alınıb. Aydın məsələdir ki, sülhün alternativi yoxdur, sülhə qarşı çıxmaq isə heç bir halda fayda gətirmir. Azərbaycanla sülh müqaviləsi imzalanmadığı və qarşılıqlı münasibətlərdəki qeyri-müəyyənlik aradan qaldırılmadığı halda Ermənistanın nə kimi fəsadlarla üzləşəcəyini isə Prezident İlham Əliyev aydın şəkildə dəfələrlə qeyd edib.

Ötən müddətdə torpaqlarımızın 20 faizinin işğal altında olmasına, 1 milyona yaxın keçmiş məcburi köçkün və qaçqının pərən-pərən düşməsinə baxmayaraq, Azərbaycan təkbaşına dirçəlməyi, sosial-iqtisadi tərəqqiyə çatmağı və beynəlxalq layihələrin əsas icraçısı olmağı bacarıb. İndi isə ölkəmiz gücünə güc qatıb və demək olar ki, bütün sferalarda, sözün əsl mənasında, inkişafının ən yüksək mərhələsinə qədəm qoyub. Yəni təlatümlü illərdə çətinlikləri geridə qoymağı və bütün sınaqlardan üzüağ çıxmağı bacaran Azərbaycan üçün tarixinin ən güclü dövründə Ermənistanla məsələsini həll etmək müşkül iş deyil. Ermənistanın bundan sonrakı bütün təxribatlarını lazımi vaxtda və lazımi şəkildə dəf etmək, onları yerində oturtmaq indi ölkəmiz üçün asan məsələdir.

Bölgədə təxribatlar törətməyə davam edəcəkləri halda Azərbaycanın cavab tədbirləri erməniləri bu dəfə daha dərindən məyus edəcək. Bölgədə sülhün bərqərar olmasına laqeyd yanaşan Ermənistana qarşı Azərbaycanın da eyni mövqedən çıxış etməsi onları daha ağır məğlubiyyətə uğradacaq. Bütün dünya Ermənistanın timsalında şahidi olacaq ki, beynəlxalq donorların sayəsində dövlət kimi mövcudluğunu qoruyub saxlamaq və qalib tərəflə terror, təhdid dili ilə danışmaq qeyri-mümkündür.

### Azərbaycan haqqın və ədalətin tərəfindədir

İkinci Qarabağ savaşında qısa müddətdə 30 illik işğala son verən və təcavüzkarı kapitulyasiya aktı imzalamağa məcbur edən tərəf olmasına baxmayaraq, Azərbaycan ictimai-siyasi sabitliyin qorunub saxlanılmasında maraqlı olduğuna görə müharibədən dərhal sonra Ermənistana sülh təklif edib. Ölkəmiz hələ XX əsrdən başlayaraq ədalətsizlik, işğal siyasəti və müxtəlif terror aktları ilə üz-üzə qalmasına rəğmən, hər zaman beynəlxalq hüquq normalarına əməl edib və təhlükəsizliyin, əməkdaşlığın və siyasi rifahın təmin edilməsi üçün əlindən gələni əsirgəməyib.

Vətən müharibəsinin ilk günlərindən etibarən aldığımız qələbə sədaları, Ali Baş Komandan İlham Əliyevin ötürdüyü Zəfər müjdələri bir millət olaraq bizi "dəmir yumruğ"a çevirib, mübarizə ruhumuz bizə sarsılmaz güc bəxş edib. O güc ki, müxtəlif təzyiq vasitələrinin - xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbisinin, onların havadarlarının, bütün ədalətsiz və barbar "güc"lərin fövqündə dayanır. Bunun nəticəsidir ki, bu gün xalqımız baş verən gərgin proseslərə, ölkəmiz əleyhinə yönəlmiş qərəzli bəyanatlara, əsassız iddialara, müxtəlif formalı erməni təxribatlarına kifayət qədər təmkinli yanaşır.

30 il boyunca münaqişəni hərbi-siyasi yolla həll etməmək üçün səbrini göstərən Azərbaycan indi də böyüklük nümayiş etdirir. Bu həm diplomatik, həm də hərbi meydanda qarşımızda diz çökməyə məcbur olan Ermənistanın özünə də yaxşı məlumdur. Ermənilərin bundan sonrakı taleyi isə onların atacağı son addımdan asılı qalıb. Bununla bağlı Prezident İlham Əliyev I Şuşa Qlobal Media Forumunda mövqeyini bir daha ifadə edib: "Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır". Dövlət başçısının dediyi kimi, "onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir".

Ermənistanın siyasi rəhbərliyinə dəfələrlə bildirilib ki, regionda təhlükəsiz, əmin və arxayın yaşamağın yolu üçtərəfli bəyanatların müddəalarını yerinə yetirmək və sülh müqaviləsini imzalamaqdır. Bunun əksi Ermənistanın özünə baha başa gələ bilər. Müzəffər Lider İlham Əliyevin təklif etdiyi şərtlər regionda sülhün yeganə təminatı olduğuna görə, Ermənistanın başqa seçimi yoxdur.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*